YERÜSTÜ YANĞIN HİDRANTI

Yerüstü yanğın hidrantı H1450, H1750, H2150 ölçülərində EN 14384, EN 1074-1/4 standartlarına uyğun fövqəladə hal köməkçisidir.

1. Məhsulun məqsədi və texniki xüsusiyyətləri:

Yerüstü yanğın hidrantı fövqəladə hallar zamanı iaşə və məişət obyektlərinin yanğından mühafizə və eyni zamanda yanğın söndürən maşınların su təchizatı üçündə istifadə edilir.

2. Quruluşu və iş prinsipləri:

Hidrant 1 klapanlı sistemdən ibarətdir və milin hərəkət etməsi ilə bərabər milə bərkidilmiş klapan yuxarı və ya aşağı doğru hərəkət edərək su axımını tənzimləyir. Məhsul quyu tipli kanalizasiya daxilində quraşdırılmağa və istifadəyə uyğun deyil.

AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020

3. Əsas texniki məlumatlar və xüsusiyyətlər:

3.1 Xarici görünüş və bağlantıların ölçüsü



AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020

№	DETAL	MATERİAL	ƏDƏD
1	Alt Gövdə	GJS-400-15	1
2	Başmaq	GJS-400-15	1
3	Klapan	GJS-400-15	1
4	Orta gövdə	GJS-400-15	1
5	Klapan üstü	GJS-400-15	1
6	Kipləşdirici rezin	EPDM	3
7	Üst gövdə	GJS-400-15	1
8	Mil	X20Cr13	1
9	Şlanq çıxış qapağı	Aliminium	2
10	Şlanq çıxış	Aliminium	2
11	Yarım şayba	Latun	1
12	Kipkəc	Latun	1
13	Dayaq başlığı	GJS-400-15	1
14	O-ring	EPDM	1
15	Təxliyə venteli	Latun	1
16	Klapan Rezini	EPDM	1
17	Bolt	8.8 qalvanizli	-

DN mm	PN atm	D mm	H1 mm	H2 mm	H3 mm	H4 mm	L mm	H mm	K mm	C mm	N
80	16	200	275	270	180	815	1435	1545	160	19	8
80	16	200	275	570	180	815	1730	1840	160	19	8
80	16	200	275	570	180	815	2140	2250	160	19	8
100	16	220	307	270	180	815	1445	1570	180	19	8
100	16	220	307	570	180	815	1750	1875	180	19	8
100	16	220	307	570	180	815	2145	2275	180	19	8

AZERTEXNOLAYN MMC məhsullarının istismarına mənfi təsir göstərməyən dizayn və material dəyişikliyi hüququnu özündə saxlayır. 1-May-2020

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020

4. Konstruksiyanın təsviri:
Yerüstü yanğın hidrantı metal gövdələri EN 1563 standartına uyğun olaraq EN GJS 400-15 materialından hazırlanır. Paslanmaz mil və bağlantı detalları EN 10088 standartına əsasən paslanmaz və qalvanizli materiallardan olur. Sızdırmazlığı təmin edən sızdırmazlıq rezini isə EN 681-1 standartına uyğun olaraq EPDM materialından hazırlanırki bu da insan həyatı üçün təhlükə törətmir. Məhsulun boyası EN 10289 və EN 10339 standartlarına uyğun olaraq elektrostatik epoksi toz və ya thermoplast epoksi boya ilə boyanır. Hidrantın sağ və sol təxliyyə çıxışları isə uyğun olaraq dür aliminium materialından olur. Flanş bağlantıları EN 1092-2 standartına uyğundur.

5. Təhlükəsizlik təlimatı:
Yerüstü yanğın hidrantıları təhlükəsizlik baxımından diqqət tələb edən məhsullardandır. Beləki bu məhsullar yalnız təcrübəli işçilər tərəfindən həm quraşdırılmalı həm də istifadə edilməlidir. Klapan nasazlıqlarından təxliyyə çıxışlarından su gəldiyi halda qapaqları məcburi bağlamaq olmaz. Nəticədə qapaqlar bağlı vəziyyətdə gövdə daxilində yüksək təzyiq yarana bilər. Sağ və sol təxliyyə çıxış qapaqlarının qapalı vəziyyətdə gövdə daxilində təzyiq varsa bu zaman nəinki qapağı açmağa cəhd etməməli hətta qapaqların önündə durmaq və ya qapaqların önündən keçmək belə olmaz. Əks təqdirdə təzyiq nəticəsində qoparaq aralanan qapaqlar ciddi xəsarət yetirə bilər. Təzyiqli su gəldiyi vaxt qapaqları açıq çıxışların önündə dayanmaq olmaz. Xəttdə təzyiq olduğu vaxtda hidrantların təmiri qətiyyən qadağandır.

6. Təmir tələbləri:
Yerüstü yanğın hidrantı hidrant detallarının hər hansısa birində yaranmış qüsurların təmir edilərək aradan qaldırılması (qaynaq,emal və.s) qadağandır. Təmirə ehtiyacı olan detallar yenisi ilə əvəzlənməlidir. Təmirə ehtiyac yaranarsa istehsalçı şirkətə dərhal məlumat verməlidir.

7. Quraşdırma qaydası:
Hidrantlar düz yerə perpendikulyar olaraq quraşdırılmalıdır. Hidrant quraşdırılmadan öncə boru daxilində olan yad cisimlər təmizlənməlidir. Yerüstü yanğın hidrantının quraşdırılması zamanı ən çox diqqət edilməli nüans hidrantın yer səthindən yuxarıda qalan hissəsidir. Beləki hidrant quraşdırılmadan öncə boru xəttinin yer səviyyəsinə olan məsafəsi yoxlanılmalı və hidrant sifariş edilərkəndə hidrantın hündürlük səviyyəsi (H1450, H1750, H2150) ölçüləndirməyə əsasən təyin edilməlidir ki, quraşdırılma zamanı səth üzərində hidrantın üst və alt gövdələrinin birləşmə boltları görsənməlidir.Bu cür quraşdırılmış hidrantların qəza anında (hidrantlar ilə toqquşan hər hansısa bir nəqliyyat vasitəsi) üst gövdəsi qırılır və nəticədə alt gövdə yerində qaldığı üçün hidrant qırılmasına baxmayaraq su itgisinin qarşısı alınır. Bundan əlavə hidrantın yer səthindən normal ölçüdə yuxarıda qalması təxliyyə qapaqlarının təyinatı üzrə istifadə edilməsini asanlaşdırır. Əks təqdirdə yer səthinə yaxın olacaq təxliyyə çıxışlarından su götürmək və ya yanğın söndürülməsi üçün istifadə etmək çətinləşər və ya mümkün olmaz. Flanş birləşməsinin düzgün olması üçün hidrant ayağının altına beton səth yerləşdirilməli və təxliyyə drenajının işləməsi üçün ətrafı qum ilə yox çınqıllar vasitəsi ilə örtülməlidir. Tökülmüş çınqıllar həmiçinin təmir sırasında hidrantın flanşına doğru aparılan qazıntıda qazıcı maşınistin boru xəttinə yaxınlaşmasınıda öncədən xəbər vermiş olur.

8. Saxlama məlumatı:
Yerüstü yanğın hidrantı anbarlarda paketi pozulmadan saxlanılmalıdır.

9. Daşıma:
Yerüstü yanğın hidrantı daşıma hüququ olan istənilən növ nəqliyyat vasitələri ilə daşına bilər.

10. Zəmanət:
Avadanlıq sertifikatlıdır. AZERTEXNOLAYN MMC istehlakçılara nəqliyyat, saxlama, quraşdırma və istismar qaydalarına riayət olunmaqla, istismara verildiyi gündən 1 il müddətinə zəmanət verir (iqlim şəraiti, quraşdırma və istifadəçi nöqsanları istisna olunmaqla). Yerüstü yanğın hidrantının ümumi xidmət müddəti, hərəkətli hissələr istisna olmaqla 10 ildir.
Quraşdırılma qaydalarının pozulması halında, yerüstü yanğın hidrantının keyfiyyətinə dair iddialar qəbul edilmir.

MÜƏLLİF HÜQUQLARI©AZERTEXNOLAYN MMC 2020